Astrid Lindqren

# Damda yaşayan Karlson yenidən uçub gəldi

ASTRİD LİNDQREN



# DAMDA YAŞAYAN KARLSON

## yenidən uçub gəldi

# Damda yaşayan Karlson yenidən uçub gəldi

Yer kürəsi çox nəhəngdir, orda o qədər ev var ki! Həm böyük, həm də kiçik ev. Yaraşıqlı və yaraşıqsız ev! Təzə tikilmiş və uçuq-sökük ev. Bir də damda yaşayan Karlsonun xırdaca evi. Karlson qəti əmindir ki, bu, dünyanın ən yaraşıqlı evidir və orada dünyanın ən gözəl Karlsonu yaşayır. Elə Balaca da buna qəti əmindir.



Balacaya gəlsək, deməliyik ki, o, anası, atası, Bosse və Betan Stokholmun ən adi küçəsinin ən adi evində yaşayır. Evin damında, bacanın arxasında isə xırdaca bir evin qapısına vurulmuş lövhədə yazılıb:

DAMDA YAŞAYAN KARLSON DÜNYANIN
ƏN GÖZƏL KARLSONUDUR

Əlbəttə, elə adamlar tapılacaq ki, onlara kiminsə damda yaşaması qəribə görünəcək, Balaca isə deyir:

– Burda təəccüblü bir şey yoxdur. Hərə ürəyi istəyən yerdə yaşaya bilər.

Ana ilə ata da elə hesab edirlər ki, adamlar istədiyi yerdə yaşaya bilər. Onlar əvvəl həyatda Karlsonun olduğuna inanmırdılar. Bosse ilə Betan da inanmırdı. Onlar heç təsəvvürlərinə belə gətirə bilmirdilər ki, damda kürəyi propellerli, balaca, gonbul bir kişi yaşayır, özü də bu kişi uça bilir. Bosse və Betan deyirdilər:

– Balaca, gopa basma, sənin Karlsonun uydurmadır. Balaca bir dəfə yəqinlik üçün Karlsondan soruşdu ki, o, uydurmadır, ya yox. Bu suala Karlsonun acığı tutdu: o, qəzəblə çımxırdı:

– Onlar özləri uydurmadır!

Ana ilə ata belə qərara gəlmişdilər ki, Balaca tək qalanda darıxır, tənha uşaqlar isə oynamaq üçün özlərinə müxtəlif dostlar uydururlar.

Ana dedi:

– Yazıq Balaca, Bosse ilə Betan ondan xeyli böyükdür! Oynamağa adam tapmır, ona görə də xəyala dalır.

Ata onunla razılaşdı:

– Doğrudur, hər halda, biz ona it bağışlamalıyıq. O, çoxdan it həsrətindədir. Ona it bağışlayan kimi Karlsonu unudacaq.

Beləliklə, Balacaya Bimbonu bağışladılar. İndi onun öz iti var idi, iti ona ad günündə, səkkiz yaşı tamam olanda bağışlamışdılar.

Elə həmin gündə ata, ana, Bosse və Betan Karlsonu gördülər. Bəli, bəli, Karlsonu gördülər. Bu əhvalat isə bax belə olmuşdu.

Balaca öz otağında ad gününü keçirirdi. Onunla bir sinifdə oxuyan Krister və Qunilla da burada idilər. Ata, ana, Bosse və Betan Balacanın otağından gələn qəhqəhəni eşidəndə ana dedi:



– Gəlin gedək onların yanına, onlar elə mehriban uşaqlardır ki!



Ata dedi:

– Gedək!

Ana, ata, Bosse və Betan Balacanın otağının qapısını açanda nə görsələr yaxşıdır?

Bayram süfrəsinin başında, sizcə, kim oturmuşdu? Əlbəttə, Karlson, balaca, gonbul adam, onun üzgözü tamam tortun kreminə bulaşmışdı, oturub təpişdirirdi. Karlson gələnləri görəndə var səsi ilə qışqırdı:

– Xoş gördük! Mənim adım damda yaşayan Karlsondur. Siz, deyəsən, indiyə qədər mənimlə tanış olmaq şərəfinə nail olmamısınız?

Ana, az qala, huşunu itirəcəkdi. Ata da özünü tamam itirdi.

Ata dedi:

– Ancaq baxın ha, bu əhvalatı heç yerdə danışmayın, eşidirsiniz, heç kimə bir kəlmə də.

Bosse soruşdu:

– Niyə?

Ata izah etdi:

– Bir özünüz fikirləşin, əgər insanlar Karlsondan xəbər tutsalar, bizim həyatımız tamam pozular. Onu həmin saat televizorla göstərəcək, kinoya çəkəcəklər. Pilləkənlərimizlə evə qalxanda ayağımız hey televiziya kabellərinə, məftillərinə ilişəcək, hər yarım saatdan bir isə müxbirlər evimizə gəlib Karlsonla Balacanı çəkəcəklər. Yazıq Balaca "damda yaşayan Karlsonu tapan bədbəxt oğlana..." dönəcək, bir sözlə, həyatımızda bircə sakit an olmayacaq.

Aha, Bosse və Betan atanın haqlı olduğunu başa düşdülər və söz verdilər ki, Karlson barədə heç kimə bir söz deməsinlər.

Səhəri gün Balaca yay tətilini keçirmək üçün kəndə, nənəsinin yanına gedəcəkdi. O, buna sevinirdi, yalnız Karlson üçün narahat idi. Bilmək olmazdı, bu müddətdə Karlson daha nə oyun çıxaracaqdı. Birdən o çıxıb getdi və bir daha buraya qayıtmadı onda necə olsun?

Balaca soruşdu:

– Əzizim, əziz Karlson, mən nənəmgildən qayıdana kimi sən damda yaşayacaqsan, eləmi? Mütləq yaşayacaqsan?

Karlson dedi:

– Bilmək olmaz. Sakit, bircə sən sakit ol! Axı mən də nənəmin yanına gedəcəyəm, mənim nənəm isə sənin nənəndən daha çox nənəyə oxşayır.

Balaca soruşdu:

– Sənin nənən harada yaşayır?

– Əlbəttə, evdə yaşayır, daha harda yaşamalıdır ki! Yəqin sənə elə gəlir ki, o, küçədə yaşayır və gecələr eşikdə veyllənir?

Beləliklə də Balaca Karlsonun nənəsi barədə heç nə öyrənə bilmədi. Səhəri gün Balaca kəndə yola düşdü. O, Bimbonu özü ilə apardı. Balaca kənddə bütün günü uşaqlarla oynayır və demək olar ki, Karlsonu xatırlamırdı. Yay tətili qurtarandan sonra Balaca şəhərə qayıtdı və evə gələn kimi Karlsonu soruşdu:

– Ana, sən bu müddət ərzində bircə dəfə də olsa Karlsonu görmüsənmi?

Ana başını yellədi:

– Heç bircə dəfə də görməmişəm. O, geri qayıtmayacaq.

– Belə demə! Mən istəyirəm ki, o bizim damda yaşasın. Qoy o uçub gəlsin!

Ana Balacanı sakit etmək üçün dedi: